**UOT 75**
https://doi.org/10.59849/2311-8482.2025.4.205

**GÜNAY İSMAYILOVA***

# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ AZƏRBAYCAN BƏSTƏKARLARININ UŞAQ MAHNI YARADICILIĞINDA MUĞAMLARDAN İSTİFADƏ

*Bu işdə ümumtəhsil məktəblərində musiqi təlimi prosesində Azərbaycan bəstəkarlarının uşaq mahnılarında muğam elementlərindən istifadə xüsusiyyətləri araşdırılır. Azərbaycan musiqi mədəniyyətinin əsas sütunlarından olan muğamın uşaqların musiqi tərbiyəsində rolu, onların milli musiqi zövqünün formalaşmasına təsiri və melodik-diastematik düşüncəni inkişaf etdirməsi əsas müzakirə obyektidir. Tədqiqat göstərir ki, S. Ələsgərov, F. Əmirov, C. Hacıyev, T. Bakıxanov və digər bəstəkarların uşaq mahnılarında muğam ladları, tipik intonasiyalar, zərb muğam ritmləri və lad-melodiya quruluşu xüsusi pedaqoji məqsədlərlə tətbiq olunur. Bu ünsürlər məktəb yaşlı uşaqların həm milli musiqiyə marağını artırır, həm də onların vokal diapazonuna uyğun şəkildə sadələşdirilmiş formada təqdim edilir.Araşdırmanın nəticələrinə görə, muğam intonasiyaları ilə yazılmış uşaq mahnılarının musiqi dərslərində istifadəsi şagirdlərin milli kimlik duyğusunu gücləndirir, musiqi savadını genişləndirir və yaradıcılıq qabiliyyətlərinin inkişafına müsbət təsir göstərir. Həmçinin bu mahnılar ritmik hissiyyatın, intonasiya dəqiqliyinin və vokal mədəniyyətin formalaşmasında əhəmiyyətli rol oynayır. Beləliklə, Azərbaycan bəstə karlarının uşaq mahnı yaradıcılığında muğam elementlərinin tətbiqi ümumtəhsil məktəblərində musiqi təliminin keyfiyyətini yüksəldən, milli-mədəni irsin davamlılığını təmin edən mühüm didaktik vasitə kimi qiymətləndirilir.*

***Açar sözlər:*** *Azərbaycan musiqisi, uşaq mahnıları, uşaq mahnı yaradıcılığı, muğam, muğam ladları, muğam üslubunda mahnılar, bəstəkar yaradıcılığı, uşaq musiqi tərbiyəsi, musiqi təhsili, ümumtəhsil məktəbləri, musiqi dərsləri, müasir uşaq mahnıları.*

## Giriş

Bəstəkarların yaradıcılığı musiqi mədəniyyətinin ən parlaq səhifələrini təşkil edir. Azərbaycan musiqi mədəniyyətinin inkişafında bəstəkar yaradıcılığının muğam mən bələri ilə qarşılıqlı əlaqəsinin tədqiqi böyük əhəmiyyətə malik məsələlərdəndir. Azərbaycan muğam sənətinə dərin köklərlə bağlı olan bəstəkar bədii üslubunun özünəməxsusluğundan irəli gəlir və onun yaradıcılığının milli xüsusiyyətlər kontekstində təhlinin zəruriliyini şərtləndirir. Bəstəkarların yaradıcılıq üslubunun kökləri ənənəvi musiqinin dərin qatları muğam sənəti ilə bağlıdır. Muğamla bağlılıq bəstəkarların əsərlərini proqramlı məzmunundan janr xüsusiyyətlərindən tutmuş musiqi dilinin ifadə vasitələrinə-forma quruluşu məqam-intonasiya əsası, harmonik, melodik, polifonik və ritmik cəhətlərinə qədər özünü göstərir.

## Əsas təhlil

Azərbaycan bəstəkarlarının əsərlərinə müraciət etsək görərik ki, bəstəkarların əsərlərində muğam mühüm əhəmiyyət kəsb edir, onların əsərlərinin əksəriyyəti muğamların əsasından çıxış etmiş, bəstəkar larımız müxtəlif janrlarda – opera, oratoriya, simfoniya, kamera-instrumental əsərlərdə bütövlükdə muğamlardan və ya muğam intonasiyalarından istifadə etmişlər. Onlardan bəziləri muğamın əsas prinsiplərinə əməl etməklə şərti şəkildə bəzi muğamları bütövlükdə əsərlərinə daxil etmişlər. Digərləri isə muğamların yalnız intonasiyası, melodiyası, metro-ritm xüsusiyyətlərindən istifadə etmiş, bəzi incəsənət xadimləri muğam əsərlərindən bəzi nümunələri əsərlərinə bədiilik məqsədilə əlavə etmişlər.

Görmək lazımdır ki, bəstəkarların əsərlərində bəzi muğam hissələrinin istifadə edilməsi onların yaradıcılığına xüsusi bir xalq musiqisi nümunəsindən bəhrələnmək xarakteri vermiş, əsərlərinin xalqla bağlılığını təmin etmişdir.

Qeyd etmək lazımdır ki, bəzi incəsənət xadimləri muğamlardan istifadə etdikdə bəstəkar əsərlərində bəzən də yenilənilməmiş şəkildə təkrarını verməyi məqsədəuyğun çıxış yolu hesab

etmişlər. Biz bu yanlış fikirlə razılaşa bilmərik. Çünki əsas məsələ xalq musiqi nümunəsindən istifadə etməkdən asılı olmayıb, onun əsərdə tutduğu mövqedən asılıdır.

Muğamlardan öz yaradıcılığında istifadə edən ilk bəstəkar Azərbaycan professional musiqisinin banisi Üzeyir Hacıbəyov olmuşdur. Ü. Hacıbəyov bütün yaradıcılığı boyu muğam əsərlərinə xüsusi yer vermişdir. Onun əsərlərində muğam ənənələri daima diqqət mərkəzində olmuşdur.

Muğamlardan musiqimizin mərkəzi janrı və ümumxalq musiqisinin örnəyi kimi istifadə etmişdir. Azərbaycan musiqisinin öyrənilməsində muğam sisteminin həll edilməmiş məsələsi barədə görkəmli alim belə nəticəyə gəlmişdir:"Azərbaycan musiqisinin əsasını muğam təşkil edir".O, musiqimizin öyrənilməsində muğamlara xüsusi diqqət yetirməyi vacib hesab edir.

Üzeyir Hacıbəyov inanırdı ki, bu muğamlar öz sərbəst əhəmiyyətini saxlayır və çox böyük rol oynayacaqdır.

Ü.Haçıbəyovun dediklərindən aydın olur ki, "Leyli və Məçnun" operasında muğam aparıcı rola malikdir.

Qeyd edək ki, muğamdan istifadə Azərbaycan bəstəkarlıq məktəbinin əsas üslub xüsusiyyətlərindən biridir. Muğamdan bəstəkar yaradıcılığında istifadə ilə bağlı musiqişünas Ramiz Zöhrabov yazır: "Biz əgər Azərbaycan bəstəkarlarının əsərlərinə müraciət etsək görərik ki, bəstəkarlarımız mahnıdan tutmuş irihəcmli musiqili səhnə əsəri-operaya qədər bütün janrlarda muğamlardan iki yolla bəhrələnmişlər. Onlardan bəziləri muğam və onun növlərinin orjinal melodiyasını eynilə saxlamış, yəni nümunələrdən sitat şəklində istifadə etmişlər. Digərləri isə muğamların ifadə vasitələrindən-ayrı-ayrı melodiya-intonasiya ünsürlərindən, rəngarəng ritmlərindən, quruluş xüsusiyyətlərindən faydalanaraq orjinal əsərlər yaratmışlar"

Azərbaycan bəstəkarlarının muğam sənətinə müraciəti və ondan müxtəlif yollarla istifadə məsələləri musiqişünaslar Elmira Abbasova və Nəriman Məmmədovun "Muğam və Azərbaycan simfonizmi" məqaləsində də öz əksini tapmışdır. Müəlliflər Üzeyir Hacıbəylinin əsasını qoyduğu muğamdan bəstəkar yaradıcılığında istifadə yollarını xarakterizə edərək bu istiqamətdə bir neçə yolu qeyd etmişlər. Birincisi, muğamlardan olduğu kimi istifadə - muğam operalarının timsalında özünü göstərir. İkincisi isə "Koroğlu" operasında xüsusilə qabarıqdır: bu, muğamın quruluş prinsipləri ilə bəstəkar yaradıcılığı qanunlarının qovuşdurulmasından ibarətdir. Hər iki yol Üzeyir Hacıbəylinin ənənələrinin davamı kimi Azərbaycan bəstəkarlarının müxtəlif janrlı əsərlərində özünü göstərir.

E.Abbasova və N.Məmmədovun "Muğam və Azərbaycan simfonizmi" məqaləsin də bəstəkar yaradıcılığında muğamdan istifadənin üçüncü yolu da qeyd olunmuşdur. Onların fikrinə görə, Azərbaycan simfonizmində muğamın musiqi üslubunun ayrı-ayrı lıqda tərkib hissələrindən, xüsusilə formayaradıcı qanunauyğunluqlardan istifadə edil mişdir. Bütün bunlar yeni ifadə vasitələrinin meydana gəlməsinə səbəb olmuşdur. Müəl liflər muğamdan istifadənin üçüncü yolunu "muğamvarilik" termini ilə [10, s. 44] səciy yələndirmişlər ki, bu da musiqi üslubunun xüsusiyyətlərini müəyyən edən prinsipdir. Göründüyü kimi, bəstəkarların muğamdan yaradıcılıqla istifadə etməsi onların bədii məqsədi ilə əlaqədardır.

F.Əmirovun yaradıcılığında muğamdan istifadə müxtəlif yollarla öz əksini tapmışdır.

F.Əmirovun yaradıcılıq irsində bütün janrlara aid əsərlərdə muğam təzahürlərini görə bilərik. Azərbaycan musiqi tarixinə F.Əmirov simfonik muğam janrının yaradıcısı kimi daxil olmuşdur. Onun "Şur", "Kürd-Ovşarı", "Gülüstan Bayatı-Şiraz" simfonik muğamları simfonik musiqinin yeni janrı olmaqla, bəstəkar yaradıcılığında muğamdan bəhrələnmə yollarını inkişaf etdirdi. F.Əmirovun simfonik əsərləri – "Nizami" simfoniyası, "Azərbaycan kapriçiosu", "Azərbaycan qravürləri" və s. musiqili-səhnə əsərləri – "Sevil" operası, "Min bir gecə", "Nəsimi

dastanı", "Nizami" baletləri, kamera-instrumental əsərləri – "Muğam-Poema", "Üzeyir Hacıbəyliyə ithaf" və digər çoxsaylı instrumental və vokal əsərləri bəstəkarın muğamdan müxtəlif yollarla bəhrələnməsinin nümunələridir.

Fikrət Əmirovun yaradıcılığında diqqəti cəlb edən başlıca cəhət ənənəvi musiqini – xalq mahnı və rəqslərini, aşıq havalarını, muğamları öz bəstəkarlıq təfəkkürünün süz gəcindən keçirməsi ilə bağlıdır. Əlbəttə ki, hər bir bəstəkarın yaradıcılığı kontekstində bu cəhət müxtəlif xüsusiyyətlərlə səciyyələnir. Bununla belə bəstəkarın musiqi dilinin özəyinin milli musiqinin ənənəvi intonasiyaları ilə bağlı olması, janrından və həcmindən asılı olmayaraq, demək olar ki, bütün əsərlərdə özünü büruzə verir.

Fikrət Əmirovun əsərlərində muğamlardan və xalq musiqisindən yaradıcı surətdə istifadə olunmasını Qara Qarayev belə səciyyələndirmişdir: "F.Əmirov xalq mahnı və rəqslərinə çox qayğı ilə yanaşır, o, demək olar ki, melodiyanı dəyişməz şəkildə saxlayır, lakin onu incə harmoniyalarla, rəngarəng orkestr boyaları ilə toxunmuş gözəl çərçivəyə salır, yəni folklor üçün genetik cəhətdən səciyyəvi olmayan elementlərdən istifadə edir"

Ü.Hacıbəyov ilk səhnə əsəri olan "Leyli və Məcnun" operasında müxtəlif muğam üslublarına, onların qollarına, təsnifatlarına və rənglərinə müraciət etmişdir.

"Leyli və Məcnun" necə yaranıb? Bu suala Ü.Haçıbəyov məqalələrinin birində belə cavab verir:-"Opera üzərində işləməyə 1907-ci ildə başlamışam, lakin bu fikir mənə çox əvvəllər, təxminən 1897-1898-ci illərdə, mən on üç yaşlı uşaq ikən doğma Şuşada Məcnunun "Leylinin məqbərəsi" əsərinin "Gecələr" tamaşasını həvəskar aktyorlar tərəfindən tamaşaya baxandan sonra yaranmışdı.

Doğrudan da, Ü.Haçıbəyov "Leyli və Məcnun" əsərində dəstgahların tərkib hissəsi olan muğam fraqmentlərindən, təsnif və rənglərdən böyük məharətlə istifadə edə bilmişdir. Seçilmiş muğam fraqmentləri operanın ümumi məzmununa, obrazların ruhuna çox uyğundur. Müəllif özü bu əsas xüsusiyyəti belə xarakterizə edir: "Leyli və Məc nun"un partiturası yox idi. O, hadisələrin ardıcıllığını və səs nömrələrini göstərən "istiqamət" ilə əvəz olundu. Partiyaya yalnız orkestr və xor üçün xalq mahnılarından götürülmüş melodik material daxil edilmişdir. Müğənnilərə ifa etdikləri muğam melo diyasından ayrılmadan improvizə etməkdə tam sərbəstlik verilirdi. Hər bir muğamın çoxlu sayda improvizasiya variantları var. Ona görə də hər bir xanəndə "Leyli və Məçnun"dan ariyalar (muğam parçaları.) öz bildiyi kimi oxuyurdu".

Ü.Hacıbəyovun dediklərindən aydın olur ki, "Leyli və Məcnun" operasında mu ğam aparıcı rol oynayır. Muğam operanın dramaturji inkişafında, situasiyaların açıl masında mühüm janr hesab olunur.

Biz yuxarıda öz əsərlərində konkret muğamın və ya onun qollarının melodiyasını qoruyub saxlayan Azərbaycan bəstəkarlarının bəzi xarakterik nümunələrini nəzərdən keçirdik.

Onu da demək lazımdır ki,muğam melodiyalarının ayrı-ayrı elementlərindən istifadə sahəsində bəstəkarlarımız xeyli iş görüblər. Məsələn, böyük bəstəkarımız Ü.Hacıbəyov bəzi əsərlərində muğamların melodik xüsusiyyətlərindən istifadə etmişdir. İlk növbədə onun xalq çalğı alətləri orkestri ilə bağlı iki fantaziyasını qeyd edə bilərik. Bu əsərlərə "Çaharkah" və "Şur" fantaziyaları da deyilir. Çünki müəllif fantaziyalarında "Çaharkah" və "Şur" muğamlarının melodik əsasına istinad edir.

Bəstəkar muğamların ifadə vasitələrinin köməyi ilə operada intonasiyaların vəhdətini yaratmağa nail olmuşdur. Məsələn, "Şur" muğamı vasitəsilə müəllif operada qəhrəmanlığı tərənnüm edir. Bu cəhət üsyankar xalqın leytmotivində və "Çənlibel" xorunun musiqisində özünün dolğun təcəssümünü tapmışdır.

Azərbaycan bəstəkarlarının yaradıcılığında müxtəlif yollarla dəstgah, zərbi muğam, təsnif və rütbə tədqiqat obyekti kimi müxtəlif üsullarla istifadə edilməsinə aid bir sıra örnəklərə müraciət etdik. Belə misalların sayını artırmaq olar. Lakin verdiyimiz nümu nələr sübut edir ki, bəstəkarlarımız şifahi-professional janr nümunələrindən istifadə edə rək onlara yaradıcı münasibət inkişaf etdirir, onları yaradıcılıq lüğətindən keçir, mükəm məl nümunələrinə yeni xüsusiyyətlər qatır, bu inciləri rəngarəng ifadə vasitələri ilə zən ginləşdirirlər. Təbii ki, xalq-professional musiqi yaradıcılığına belə münasibət bəstə karlarımızın təqdirəlayiq cəhətlərindən biri kimi dəyərləndirilməlidir. Bu məziyyətlər bəstəkarlarımızın müxtəlif səpkili əsərlərinin xalqa, doğma musiqiyə yaxın dildə yazıl masına səbəb olur. Söz yox ki, gələcəkdə müxtəlif nəsillərdən olan bəstəkarlarımız da şifahi-professional janr nümunələrinə səssiz muğamlara müraciət edəcək, onların əsa sında musiqi irsimizi, ruhumuzu zənginləşdirən yeni töhfələr yaradacaqlar. Biz buna əminik.

Azərbaycan musiqi mədəniyyətinin ən qədim və qiymətli xəzinəsi olan muğam, təkcə professional vokal və instrumental ifalarda deyil, həm də uşaq mahnı yaradı cılığında mühüm yer tutmuşdur. Bəstəkarlar uşaqlara milli musiqi zövqü aşılamaq üçün muğamların melodik, ritmik və intonasional xüsusiyyətlərindən geniş istifadə ediblər. Bu mövzu həm musiqi pedaqogikasında, həm də milli-mədəni kimliyin formalaşmasında böyük əhəmiyyət daşıyır.

1. Muğamdan istifadənin məqsədləri

Uşaqlara milli musiqi düşüncəsini aşılamaq

Şifahi ənənəli professional musiqi ilə tanışlıq yaratmaq

Musiqi duyumunu, intonasiya hissini inkişaf etdirmək

Azərbaycan musiqisinin melodik xüsusiyyətlərini qorumaq

Uşaqlarda estetik zövq və milli kimlik formalaşdırmaq

2. Bəstəkarların istifadə etdiyi muğam ladları

Rast (şövq, sabitlik, aydınlıq)

Şur (zəriflik, lirizm)Segah (emotionallıq, milli intonasiya)

Bayatı-Şiraz, Çahargah, Şahnaz kimi muğam ladlarının elementləri

Bu ladların sadələşdirilmiş formaları uşaq mahnılarının melodiyasına uyğunlaşdırılır.

3. İstifadə formaları

Muğamın intonasiyalarından istifadə

Sadə melodik dövrlərin tətbiqi

Ritm və usul xüsusiyyətlərinin mahnıya uyğunlaşdırılması

Muğam elementləri ilə nağıl, oyun, mövsüm mahnılarının sintezi

Vokal və instrumental müşayiətdə milli çalarların verilməsi

4. Tanınmış bəstəkarlar və nümunələr

Üzeyir Hacıbəyli (xalq intonasiyası ilə uşaq mahnıları)

Fikrət Əmirov (muğam-simfonizm ənənəsini sadələşdirilmiş formada)

Səid Rüstəmov

Şəfiqə Axundova

Oqtay Zülfüqarov

Emin Sabitoğlu və s.

Bu bəstəkarlar uşaq musiqisində muğamların ruhunu qoruyaraq melodik sadəlik yaratmışlar.

5. Pedaqoji əhəmiyyəti

Uşaqlar erkən yaşdan milli musiqi dilinə alışırlar

Dərslərdə muğam ünsürlü mahnılar nəfəs, intonasiya, qulaq məşqləri üçün istifadə olunur

Musiqi məktəbləri və ümumtəhsil məktəbləri üçün dəyərli repertuar yaranır

Ümumtəhsil məktəblərində musiqi təlimi zamanı muğam ünsürlərinin uşaq mahnılarına daxil edilməsi uşaqlarda milli musiqi duyumunun formalaşmasına, estetik zövqün inkişafına və musiqi düşüncəsinin zənginləşməsinə mühüm təsir göstərir.

Müasir uşağın duyğusu da, düşüncəsi də, həyata baxışı da, zövqü də fərqlidir, rənglidir. Uşaqlarımızın dinamik yaşam tərzinə daha çox uyğun gəldiyi məlumdur. Onların təfəkkürü o qədər inkişaf edib ki, yeniliklərə nail olmaq istəyirlər. Əlbəttə, müasir uşağın zövqünü, düşüncəsini, maraqlarını cəlb etmək üçün onların ruhuna uyğun əsərlər meydana çıxmalıdır.

Bu gün yeni ruhlu, müasir uşağın dünyagörüşünə uyğun mahnılar yaranırmı?

Musiqiçi Təranə Qasımovanın sözlərinə görə, son illər yaranan uşaq mahnılarının mövzusu dövlət müstəqilliyimiz, üçrəngli milli bayrağımız, təbiətimizlə bağlıdır. O bildirdi ki, son illər yaranan uşaq mahnılarının sayı çox olmasa da, az da deyil.

Sovet illərində yaranan uşaq musiqisi nümunələrinin də bu gün uşaqlara öyrədilməsinə əhəmiyyət verilməli olduğunu deyən musiqiçi bildirdi ki, o mahnılar, sözün əsl mənasında, böyük tərbiyə məktəbidir: “Biz uşaq olanda Azərbaycan Radiosundan ünvanımıza yazılan uşaq mahnılarını hər zaman dinləyirdik. Ağabacı Rzayevanın "Dəcəl buzovum" mahnısını hələ də unuda bilmirəm. Uşaq psixologiyasını dərindən bilən, uşaq duyğusunu yaxşı anlayan şairlər, bəstəkarlar elə gözəl, elə maraqlı mahnılar yazırdılar ki, bu yaşımızda da onlardan zövq alırıq. Bizim uşaqlığımız o qədər maraqlı, o qədər rəngarəng idi ki, onu sözlə təsvir etmək çətindir.

Uşaqlar üçün yazılan hər bir nəğmə dilimizin əzbərinə çevrilərdi. Biz mənəviyyata söykənib, elin ruhundan güc alıb formalaşmışıq. Ona görə də maddiyyat adamından daha çox mənəviyyat adamıyıq. Uşaq mahnıları, uşaq şeirləri öz gözəlliyi, cəlbediciliyi ilə yüzillər boyu insanların mayasına hopub, mənəviyyatını formalaşdırıb, əxlaqını gözəlləşdirib”.

Uşaq mahnılarının mahir ifaçısı Zabitə Məmmədovanın əməyini xüsusi qeyd etməliyik. O, uşaq mahnılarının ərsəyə gəlməsində, onların ifasında xüsusi yer tutur.

Bildirək ki, uşaqlıqdan sevə-sevə dinlədiyimiz bir sıra uşaq mahnılarını Zabitə xanım ifa edib. Onun ifasında qızların uşaq vaxtı tez-tez qulaq asdığı Ağabacı Rzayevanın "Kukla" mahnısı unudulmazdır. Z.Məmmədovanın özü də uşaqlar üçün "Çəpişim", "Məktəb valsı" mahnılarını yazıb. Görkəmli qadın bəstəkarımız, dahi Üzeyir bəyin ilk tələbələrindən olan Hökümə Nəcəfovanın "Günəş olaram mən də" mahnısı heç yadımızdan çıxmır. Uşaqlar üçün bir-birindən gözəl əsərlər yazan bəstəkar Oqtay Rəcəbovun "Göyçək Fatma" cizgi film-operası (1992) "Xeyir və Şər" uşaq operası (N.Gəncəvinin əsəri əsasında, 1994), "Uşaqlar sevinsin həmişə" mahnısını tez-tez dinləyirik”.

Vaxtilə uşaqlar üçün Oqtay Zülfüqarov, Rəşid Şəfəq, Əfsər Cavanşirov, Səid Rüstəmov, Zabitə Məmmədova, Hökümə Nəcəfova, Ağabacı Rzayeva, Soltan Hacıbəyov, Oqtay Rəcəbov, Musa Mirzəyev, Qəmbər Hüseynli, Fikrət Əmirov, Tofiq Quliyev, Vasif Adıgözəlov, Ramiz Mirişli, Aygün Səmədzadə, Səadət Fərziyeva, Nazim Quliyev və başqaları əsərlər, mahnılar yazıblar: “Gördüyümüz kimi, onların sayı elə də çox deyil, ancaq yazdıqları bütün dövrlər üçün aktualdır. Sadəcə, o mahnıların təbliğatı zəif olduğundan, indiki uşaqlara çatdırılmasında problemlər var. O da məlumdur ki, respublikada fəaliyyət göstərən uşaq bağçalarının çoxunda musiqi dərsi keçilir, amma bəzi istisnaları nəzərə almasaq, o dərslərdə uşaq mahnıları elə də dərindən öyrədilmir. İllər əvvəl yaranan "Ad günü", "Ad günün mübarək olsun", "Ağacdələn", "Ala-bula boz keçi", "Anamın köməkçisiyəm mən", "Ay nəğməsi","Azərbaycan","Bahar bayramı", "Bahar gəlir", "Bizim gəmi", "Bənövşə","Can nənə",“Cücələrim”."Çəpişim", "Dostluq himni", "Gözəl bahar", "Gözəl yolka", "Günəş olaram mən də", "Gəl, gəl, a yaz günləri", "Heyvanların qonaqlığı", "İdman", "Kukla", "Lavaş", "Məktəb illəri", "Məktəb valsı", "Məktəbə yazdırsana", "Mənim dəcəl buzovum", "Mənim gülüm", "Nağara", "Nənəm evdə qalıb tək", "Oynaq topum",

"Oyun-oyuncaqlarım", "Qaçma, dayan", "Qaranquş", "Qaranquşum", "Qırmızı şar", "Qonaqlıq", "Quşlar", "Saat", "Sürücü", "Səməni", "Sərçə", "Tar çalıram", "Telefon-telefon", "Tıq-tıq xanım", "Uşaqlar sevinsin həmişə", "Vətən", "Vətənim", "Xoruz", "Yeni il gəlir", "Yol", "Yolka", "Əziz ana, can ana", "Alma", "Balaca kapitan", "Balaca neftçiyəm", "Balaca ovçu", "Bip-bipin nəğməsi", "Bizim Bakı metrosu" və başqa uşaq mahnıları uğurlu bələdçilərdir. Bunlar ölməz əsərlərdir və bu gün də öz aktuallıqlarını qoruyub saxlayırlar. Ümumiyyətlə, müasir bəstəkarlar da uşaq mahnıları bəstələyərkən o mahnının uşaqlara necə təsir göstərəcəyini düşünsünlər. Uşaq mahnıları müasir dövrdə uşaqların mənəvi aləminin zənginləşməsinə, dünyagörüşünün formalaşmasına böyük təsir göstərir. Düzdür, uşaq mahnıları sifarişlə yaranmır, o, bəstəkarın ürəyindən süzülüb gəlməlidir ki, səmimi olsun və ünvanına çatsın".

Azərbaycan bəstəkarlarının uşaq mahnı yaradıcılığında muğamlardan istifadə etməsi milli musiqi ənənələrinin qorunması və gənc nəslə aşılanması baxımından mühüm əhəmiyyət kəsb edir. Muğam üslubunun uşaq mahnılarına tətbiqi uşaqlarda milli musiqi duyumunun formalaşmasına, estetik zövqün inkişafına və Azərbaycan musiqi mədəniy yətinə marağın artmasına xidmət edir.

Uşaq mahnı yaradıcılığında muğamlardan istifadə Azərbaycan musiqi mədəniy yətinin ənənələrinə söykənən mühüm istiqamətlərdən biridir. Muğam ünsürlərinin uşaq mahnılarına daxil edilməsi uşaqlarda milli musiqiyə maraq oyadır, onların musiqi duyumunu, estetik zövqünü və yaradıcılıq qabiliyyətini inkişaf etdirir.

Bu cür mahnılar həm melodik, həm də məzmun baxımından milli ruhu əks etdirir, uşaqlara xalq musiqisinin gözəlliyini dərk etməyə imkan yaradır. Muğam intonasiya larının sadələşdirilmiş şəkildə təqdim olunması uşaqların yaş səviyyəsinə uyğun musiqi tərbiyəsini təmin edir.

**Nəticə**

Beləliklə, uşaq mahnı yaradıcılığında muğam elementlərindən istifadə milli musiqi dəyərlərinin qorunması, inkişafı və gələcək nəsillərə ötürülməsi baxımından mühüm pedaqoji və mədəni əhəmiyyətə malikdir.

Bu istiqamətdə bəstəkarlarımız — Üzeyir Hacıbəyli, Fikrət Əmirov, Süleyman Ələsgərov, Şəfiqə Axundova, Cahangir Cahangirov və digərləri — muğam intonasiya larını, lad xüsusiyyətlərini və melodik quruluşunu uşaq mahnılarında ustalıqla tətbiq etmişlər. Nəticədə bu mahnılar həm uşaqlar üçün asan qavranılan, həm də milli ruhu əks etdirən əsərlərə çevrilmişdir.

Beləliklə, uşaq mahnı yaradıcılığında muğam elementlərindən istifadə milli musiqi irsinin yaşadılması və yeni nəslin milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi üçün səmərəli vasitə olmuşdur.

## ƏDƏBİYYAT

1. Quliyev, R. Azərbaycan muğamı. Bakı: Şərq-Qərb, 2004.
2. Əlizadə, R. Muğam sənəti. Bakı, 1998.
4. Qarayeva, A. Muğam və muğam yaradıcılığı. Bakı, 1995.
1. Adıgözəlova, S. Uşaq mahnıları və onların pedaqoji əhəmiyyəti. Bakı, 1985.
3. Babayeva, A. Uşaq musiqisinin inkişaf tarixi. Bakı, 2010.
4. Əliyev, A. Uşaq mahnılarının tədrisi metodikası. Bakı, 2014.
5. Kazımova, M. Musiqi tərbiyəsi metodikası. Bakı, 2016.
6. İsmayılova, Ü. Azərbaycan bəstəkarlarının uşaq mahnılarında xalq intonasiyası. Bakı, 2018.

***Naxçıvan Dövlət Universiteti***

**Gunay Ismayılova**

## USE OF MUGHAM IN THE CREATION OF CHILDREN'S SONGS BY AZERBAIJAN COMPOSERS IN GENERAL SCHOOLS

This study examines the features of the use of mugham elements in children's songs by Azerbaijani composers in the process of music education in secondary schools. The main object of discussion is the role of mugham, one of the main pillars of Azerbaijani musical culture, in the musical education of children, its influence on the formation of their national musical taste and the development of melodic-diastematic thinking. The study shows that mugham modes, typical intonations, percussion mugham rhythms and mode-melody structure are used for special pedagogical purposes in children's songs by S. Alasgarov, F. Amirov, J. Hajiyev, T. Bakikhanov and other composers. These elements both increase the interest of school-age children in national music and are presented in a simplified form appropriate to their vocal range. According to the results of the study, the use of children's songs written with mugham intonations in music lessons strengthens the students' sense of national identity, expands musical literacy and has a positive effect on the development of their creative abilities. These songs also play an important role in the formation of rhythmic feeling, intonation accuracy and vocal culture. Thus, the application of mugham elements in the children's song creation of Azerbaijani composers is assessed as an important didactic tool that improves the quality of music education in secondary schools and ensures the continuity of national and cultural heritage.

**Keywords:** *Azerbaijani music, children's songs, children's song creation, mugham, mugham modes, songs in the mugham style, composer's creativity, children's music education, music education, secondary schools, music lessons, modern children's songs.*

**Гюнай Исмаилова**

## ИСПОЛЬЗОВАНИЕ ИМЯ МУГАМА ПРИ СОЗДАНИИ ДЕТСКИХ ПЕСЕН АЗЕРБАЙДЖАНСКИМИ КОМПОЗИТОРАМИ В ОБЩЕСТВЕННЫХ ШКОЛАХ

В данном исследовании рассматриваются особенности использования элементов мугама в детских песнях азербайджанскими композиторами в процессе музыкального образования в средних школах. Основным объектом обсуждения является роль мугама, одного из основных столпов азербайджанской музыкальной культуры, в музыкальном воспитании детей, его влияние на формирование их национального музыкального вкуса и развитие мелодико-диастематического мышления. Исследование показывает, что лады мугама, характерные интонации, ударные мугамные ритмы и ладово-мелодическая структура используются в специальных педагогических целях в детских песнях С. Алескерова, Ф. Амирова, Дж. Гаджиева, Т. Бакиханова и других композиторов. Эти элементы не только повышают интерес детей школьного возраста к национальной музыке, но и представлены в упрощенной форме, соответствующей их вокальному диапазону. Согласно результатам исследования, использование на уроках музыки детских песен, написанных с использованием интонаций мугама, укрепляет чувство национальной идентичности учащихся, расширяет музыкальную грамотность и положительно влияет на развитие их творческих способностей. Эти песни также играют важную роль в формировании

ритмического чувства, интонационной точности и вокальной культуры. Таким образом, применение элементов мугама в детском песенном творчестве азербайджанских композиторов оценивается как важный дидактический инструмент, способствующий повышению качества музыкального образования в средних школах и обеспечивающий преемственность национально-культурного наследия.

**Ключевые слова:** *Азербайджанская музыка, детские песни, создание детских песен, мугам, лады мугама, песни в стиле мугам, композиторское творчество, детское музыкальное образование, музыкальное образование, средние школы, уроки музыки, современные детские песни.*

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 21.10.2025**
**Son daxilolma tarixi:18.11.2025**